Bundan əlavə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ayrılmış vəsait hesabına qəza vəziyyətində olan 15 məktəb binası yenisi ilə əvəz edilib və 27 məktəbdə təmir işləri aparılıb.

Respublika üzrə 206 məktəbdə istilik sistemlərinin əsaslı təmiri, bərpası və yeni fərdi qazanxanaların tikintisi icra edilib.

Məlumat üçün qeyd edək ki, 2009-cu ilin Dövlət Proqramı Layihəsində 117 yeni məktəbin, 27 məktəb üçün əlavə korpusun tikintisi, 151 tədris müəssisəsinin əsaslı təmiri, 300-ə qədər məktəbin istilik sistemlərinin əsaslı təmiri və bərpası nəzərdə tutulub.